# Etìmada layìq ìşləyəcəyìk

(Əvvəli 5-ci səhifədə).

Şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsində hərbi kabinetin, idman zalının mövcudluğu müsbət rol oynayır. Məktəbin hərbi və idman yarışlarında nəticələri hər zaman yüksək olmuşdur. Məktəbin məzunlarından 6 nəfər Heydər Əliyev adına Hərbi Akademiyada, 2 nəfər Aviasiya Akademiyasında, 1 nəfər Cəmşid Naxçıvanski adına Hərbi Liseydə müəllim işləyir.

Hal-hazırda biz çox önəmli bir ərəfədə—prezident seçkisi ərəfəsində yaşayırıq. Respublikanın çoxsaylı müəllim ordusu ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevə səs verərkən güclü potensiala, yüksək yaradıcılıq qabiliyyəti olan gəncliyə, inamlı, ilhamlı gələcəyə səs vermişdir və qarşıdakı seçkilərdə də bu ənənəyə sadiq qalacaqlar. Söz yox ki, gələcəkdə onun rəhbərliyi altında bundan da böyük uğurlara imza atılacaq.

Bizim pedaqoji kollektivimiz də öz növbəsində güclü potensiala malik olan gənclərin üzə çıxarılması, onların bir şəxsiyyət kimi formalaşması və bilik, bacarıq vərdişlərinin aşkara çıxarılması üçün əllərindən gələni əsirgəməyəcək, təhsildə, təlim-tərbiyədə daha böyük uğurlar əldə etməyə çalışacaqdır.

**Qətibə ABBASOVA,**
**Vəndam qəsəbə Eldəniz Mehdiyev adına 1 saylı tam orta məktəbin direktoru.**

# Bağçadan məktəbə



Vəndam qəsəbə uşaq bağçası 1974-cü ildən fəaliyyətdədir. Bu illər ərzində yüzlərlə uşaq tərbiyə alıb məktəblərə yola salınmışdır.

Hər il olduğu kimi bu il də 40-45 nəfər uşaqdan ibarət məktəbə-hazırlıq qrupu təşkil etmişik. Bu, valideynlərin istəyi əsasında olmuşdur. Uşaqları biz sınaq testlərimizdən keçiririk. Uşağının 45 dəqiqə ərzində davranışlarına diqqət yetiririk ki, görək o, məktəb tələbinə cavab verirmi.

Bağçamızda məktəbə hazırlıq qrupunun uşaqları ilə təcrübəli və yaradıcı tərbiyəçilər məşğul olurlar. Bunlardan Sənubər Sadıqova və Rəhilə Rəsulovanın adlarını xüsusi olaraq çəkərdim.

Əvvəllər bağçalarda lazımi vəsait yox idi. İndi rayonun bütün bağçalarına xeyli vəsaitlər verilmişdir. Məşğələlər bizə verilmiş həmin əyani vəsaitlərlə keçirilir.

Uşaqlara nitq inkişafı, fiziki tərbiyə, sadə riyaziyyat, ətraf mühitlə tanışlıq, bədii ədəbiyyat, rəsm, musiqi və başqa tapşırıqları veririk. Yekunda nəyə nail olmuşuqsa pedaqoji kollektivə və valideynlərə çatdırırıq.

Gələcəkdə tərbiyə etdiyimiz uşaqların xoş sorağını gözləyirik.

**Məleykə NURMƏMMƏDOVA,**
**Vəndam qəsəbə uşaq bağçasının müdiri.**

*Prezident seçkiləri qarşısında*

# Qəbələdə Milli Qeyri-Hökumət Təşkilatları forumu

Azərbaycan Milli Qeyri - Hökumət Təşkilatları «2013-cü ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri ilə bağlı regionlarda əhalinin maarifləndirilməsi məqsədilə forumlar keçirirlər. Bu günlərdə belə forumlardan biri də Qəbələ Turizm və Otelçilik üzrə



Peşə Tədris Mərkəzində keçirilmişdir. Forumda Qəbələ Regional QHT-lərin Təlim və Resurs Mərkəzinin sədri Qalib Nəbiyev, rayonun yerli vətəndaş cəmiyyəti sektorunun təmsilçiləri və təhsil, səhiyyə, mədəniyyət işçiləri, ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbirdə MQF-nin prezidenti Rauf Zeyni giriş sözü ilə çıxış etmişdir. O, sonra «Seçki münasibətləri və seçki qanunvericiliyi» mövzusunda çıxış etmək üçün Müstəqil Elmi-Praktik Hüquq Mərkəzinin sədri Aydın Kərimova söz verdi. Natiq bildirdi ki, Azərbaycan Respublikasının vətəndaşları seçkilərdə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və müstəqim səsvermə yolu ilə iştirak edirlər.

Vətəndaşların seçkilərdə iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədi ilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz. O, daha sonra vurğuladı ki, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və seçkilərdə iştirak etmək hüququ vardır. Vətəndaşlar seçkilərdə namizədin lehinə və ya əleyhinə şəxsən səs verirlər. Başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqaların əvəzinə səs vermək və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcələsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunur-deyərək çıxışını yekunlaşdırdı.

Daha sonra «Davamlı inkişaf, sabit cəmiyyət və seçki» mövzusunda Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, «Əhalinin seçkilərdə fəal iştirakında vətəndaş cəmiyyətinin rolu» mövzularında MQF-nin prezidenti Rauf Zeyni çıxış edərək tədbir iştirakçılarını ətraflı məlumatlandırdılar.

Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri də çıxış etdilər və tədbir sual-cavablarla yekunlaşdırıldı.

**A. CALALOĞLU.**
**Foto S. Umuyevindir.**

# 3 saylı şəhər seçkì məntəqəsində

Ölkəmizin ictimai-siyasi həyatında çox mühüm hadisə olan prezident seçkiləri günü yaxınlaşır. Hər yerdə olduğu kimi, Qəbələdə də prezident seçkilərinin şəffaf, demokratik qaydada, eyni zamanda Azərbaycan Respublikasının Seçki Məcələsinə uyğun keçirilməsi üçün ciddi hazırlıq gedir. Oktyabrın 9-na təyin edilmiş seçkilər yaxınlaşdıqca, məntəqə seçki komissiyalarında işin intensivliyi artır, məntəqələrə gəlib-gedən seçicilərin sayı günbəgün artır, müşahidəçilər qeydiyyata alınır.

Bu, ölkə əhəmiyyətli mühüm və siyasi hadisəyə hazırlıqla bağlı 116 saylı Qəbələ seçki dairəsinin 3 saylı seçki məntəqəsinin gördüyü hazırlıq işləri ilə tanış olduq. Məntəqə şəhərdəki 3 saylı məktəbin binasında yerləşir. Məntəqədə yaradılmış səliqə-sahman, seçkilərin şəffaf və azad keçirilməsi üçün yaradılmış şərait demokratik tələblərə tam cavab verir. İlk növbədə onu qeyd etmək lazımdır ki, məntəqə komissiyasının tərkibi mövcud qanunvericilik əsasında, Milli Məclisdə təmsil olunan siyasi partiyaların təmsilçiləri və bitərəflərin nümayəndələrindən ibarət təşkil olunmuşdur. Bu isə öz növbəsində demokratik tələblərə tam cavab verir.

Bu məntəqədə prezident seçkilərində səsvermə hüququ olan 1.484 Qəbələ şəhər sakini iştirak edəcəkdir. Onlardan 18 nəfəri ilk dəfə səsvermə hüququ qazanan gənclərdir. 7 nəfəri isə 80 yaşdan yuxarı olan seçicilərdir. İlk dəfə səs verən gənclər arasında məntəqə komissiyasının üzvləri müntəzəm iş aparır, onlara öz hüquq və vəzifələrini ətraflı başa salırlar.

Hazırda seçicilərin ilk siyhıları dəqiqləşdirilərək asılıb. Hər gün məntəqəyə xeyli sayda seçici öz adının siyahıda olub-olmadığını dəqiqləşdirməyə gəlir. Məntəqə kifayət qədər seçki avadanlığı və maddi-texniki baza ilə təchiz olunub. Səsvermə kabinələri, daşınmaz və daşınan bülleten qutuları tam hazırlanıb. Namizədlərin təşviqat materiallarının yerləşdirilməsi üçün lövhələr düzəldilib, seçkilərə aid kifayət qədər təlimati məktublar, broşürlər stollara düzülüb, seçkiqabağı tədbirlərin və seçicilərlə görüşlərin keçirilməsi üçün müvafiq yerlərin ayrılması təmin edilib. Telefon və işıq xətlərinin fasiləsiz işləməsi üçün ilkin tədbirlər görülüb və bu sahədə heç, bir problem olmayacaqdır. Məntəqə komissiyasının üzvləri arasında iş bölgüsü aparılıb, onlara gündəlik lazımi tövsiyə və tapşırıqlar verilir. İndi komissiyanın üzvləri seçkilərdə öz yerini və rolunu, vəzifəsini və məsuliyyətini gözəl dərk edir. Ümumiyyətlə, burada gündəlik iş Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə tam uyğun qurulub.

Bir məsələni də qeyd etmək lazımdır ki, bu məntəqə seçki komissiyasının sədri Müxtəsər İsayevdir. O, pedaqoq olsa da, 1993-cü ildən bəri prezident, parlament və bələdiyyə seçkilərinin keçirilməsində fəal iştirak etmişdir və seçkilər yüksək müvəffəqiyyətlə başa çatmışdır. Bu sahədə Müxtəsər müəllimin kifayət qədər böyük təcrübəyə malik olması və seçki qanunvericiliyini yaxşı bilməsi, eyni zamanda seçicilərlə mütəmadi ünsiyyət saxlaması onun üçün heç bir problem yaratmır.

Bir sözlə, məntəqənin hər bir üzvü çalışır ki, seçkilər azad, demokratik və şəffaf keçirilsin.

**Aslan CƏLİLOV.**